AZƏRBAYCAN RESPUBLİKASI

Əlyazması hüququnda

AZƏRBAYCANDA QİDA SƏNAYESİNİN İNNOVATİV İNKİŞAF İSTİQAMƏTLƏRİ

İxtisas: 5312.01 – "Sahə iqtisadiyyatı"

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Ümid Çingiz oğlu Əlizadə**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2026

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetinin "Maliyyə və bank işi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
Eldar Allahyar oğlu Quliyev

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, professor
Səbinə İzzət qızı Vəliyeva

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Adil Şeyruz oğlu Hüseynov

iqtisad elmləri üzrə fəlsəfə doktoru
Aqil Qədir oğlu Kərimov

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
Ziyad Əliabbas oğlu Səmədzadə

Dissertasiya şurasının elmi katibi: iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
Samirə Yaşar qızı Məmmədova

Elmi seminarın sədri: Əməkdar kənd təsərrüfatı işçisi, iqtisad elmləri doktoru, professor
İslam Hacı oğlu İbrahimov

İŞİN ÜMUMİ SƏCİYYƏSİ

Mövzunun aktuallığı və işlənmə dərəcəsi. Qlobal iqlim dəyişiklikləri və ərzaq təhlükəsizliyi problemlərinin kəskinləşdiyi bir dövrdə qida sənayesinin inkişafı, mövcud mexanizmlərin təkmilləşdirilməsi vacib məsələlər kimi diqqət çəkir. Bunlarla bərabər, yüksək texnologiyaların, o cümlədən rəqəmsal mexanizmlərin və süni intellekt alətlərinin iqtisadiyyatın müxtəlif sahələrində geniş tətbiq edilməsi yeni reallıqlar yaratmışdır. Belə bir şəraitdə qida sənayesinin innovativ inkişaf problemləri xüsusilə fərqlənir. Belə ki, bu strateji əhəmiyyət kəsb edən sənaye sahəsinin inkişaf potensialının qiymətləndirilməsi tələb olunur. Qida sənayesinin innovativ inkişafının təmin olunması, yeni innovasiyaların işlənib hazırlanması, mənimsənilməsi və tətbiqi mühüm şərtlər sırasındadır.

Dünyada baş verən iqlim dəyişiklikləri ərzaq məhsulları təminatına ciddi təsir göstərməkdədir. Mühüm ərzaq məhsullarının yetişdirilməsi və qida məhsullarının istehsalı üçün xammal bazasının yaradılması aktual olaraq qalmaqdadır. Bu sahədə problemlər artmaqdadır, buzlaqların əriməsi, əkinə yararlı torpaq sahələrinin azalması, yaxud quraqlıq səbəbindən kənd təsərrüfatı üçün yararlı olan torpaq sahələrinin sıradan çıxması ərzaq məhsulları ehtiyatının yaradılmasında çətinliklər ortaya çıxarmışdır. Bunlarla yanaşı, optimal qida rejimlərinin formalaşdırılmasındakı problemlər, israfçılıq və digər səbəblərdən qida məhsullarının səmərəli istehlakında və bölüşdürülməsində də qeyri-tarazlıqlar diqqət çəkir. Bütün bunlar yüksək texnologiyaların, o cümlədən "ağıllı" texnologiyaların tətbiqinin sürətləndirilməsini və genişləndirilməsini zəruri edir.

Azərbaycan müstəqil dövlət kimi özünün ərzaq və qida təhlükəsizliyini təmin etmək üçün kompleks tədbirlər görmüşdür və bu proseslər davam etməkdədir. MDB məkanında ilk dəfə aqrar islahatlar aparılmış və torpaq sahələri əhaliyə paylanılmışdır. Regionlarda yaşayan insanlarımızın səmərəli olaraq fəaliyyət göstərmələri üçün və əmək ehtiyatlarının rasional yerləşdirilməsi məqsədilə bir-birinin ardınca – 2004-cü ildən başlayaraq 4 regional dövlət inkişaf proqramı icra olunmuşdur. Ərzaq təhlükəsizliyinin təmin edilməsinə əsaslanan kreativ baxışlar formalaşdırılmışdır.

Ölkədə Taxıl Fondu yaradılmış və qida təhlükəsizliyinin təmin edilməsi üzrə müvafiq dövlət strukturları fəaliyyətə başlamışdır. Qida rejimlərinin rasionallığının təmin edilməsi istiqamətində maarifləndirici və təşviqedici tədbirlər görülür. Aqrar sahənin elmi əsaslarla idarə edilməsi də maksimum prioritetlik təşkil edir.

Bunlarla yanaşı, son illərdə Azərbaycanda qida sənayesinin inkişaf etdirilməsi proseslərinin təkmilləşdirilməsi ilə bərabər, qida təhlükəsizliyinin gücləndirilməsi istiqamətlərində önəmli addımlar atılmışdır. Ölkə Prezidentinin 2017-ci il 13 noyabr tarixli Sərəncamı ilə Qida Təhlükəsizliyi Agentliyi yaradılmışdır[1]. Dövlət başçısının 2019-cu il 29 aprel tarixli digər Sərəncamı ilə "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur.[2] Eyni zamanda, ölkədə innovativ inkişafın tənzimlənməsi və səmərəli təşkili üçün Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli Qərarı ilə İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap pasportunun verilməsi Qaydaları" təsdiq olunmuşdur.[3] Bütün bunlar ölkədə qida təhlükəsizliyinin daha etibarlı şəkildə təmin edilməsi üçün əlavə imkanlar yaratmış, həmçinin innovasiyaların işlənilməsi və tətbiqi istiqamətlərində işlək mexanizmlərin tətbiq edilməsi bu sahədə nisbətən fəallığı təmin etməkdədir.

Ölkə iqtisadiyyatının strukturunun təkmilləşdirilməsi, qeyri-neftqaz sahələrinin inkişaf etdirilməsi, yüksək texnologiyalar və yaşıl iqtisadiyyat əsaslı fəaliyyətin təmin olunması kimi mühüm hədəflər öz əksini ölkə Prezidentinin 2 fevral 2021-ci il tarixli Sərəncamına əsasən təsdiq olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa

[1] Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı, 13 noyabr 2017.

[2] Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019–2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında AR Prezidentinin Sərəncamı. Bakı, – 29 aprel 2019.

[3] İnnovativ layihələrin ictimaiyyət üçün açıq reyestrinin aparılması və "Startap" pasportunun verilməsi Qaydaları. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 29 yanvar tarixli 21 nömrəli Qərarı ilə təsdiq edilmişdir.

dair Milli Prioritetlər"ində öz əksini tapmışdır.[4] Bu hədəflərə çatmaq üçün hazırda dövlət başçısının başqa bir – 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş 2022-2026-cı illər üzrə sosial-iqtisadi inkişaf Strategiyası icra olunmaqdadır.[5] İqtisadiyyatın texnoloji inkişafını sürətləndirmək məqsədilə mühüm sənədlər təsdiq olunmuşdur. Məsələn, ölkə Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanına əsasən "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" təsdiq olunmuşdur.[6] Ölkə Prezidentinin 2025-ci il 19 mart tarixli Sərəncamı ilə 2025-2028-ci illər üçün süni intellekt Strategiyası təsdiq edilmişdir. Hesab edirik ki, ölkəmizdə innovativ inkişafın sürətləndirilməsi üçün dövlət siyasətinin prioritetləri artıq rəsmi sənədlərdə təsbit olunmuşdur və hazırda əsas vəzifə bu istiqamətlərdə səmərəli fəaliyyətin təmin edilməsindən ibarətdir.

Müasir dövrdə ölkəmizin qida sənayesinin mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması, daha yüksək texnologiyalar əsaslı qida sənayesi müəssisələrinin yaradılması zərurəti qalmaqdadır. Müasir dövrün inkişaf postulatları və texnologiya tələbləri nəzərə alınmaqla, qida sənayesinin innovativ inkişafına kompleks yanaşmalar vacibdir. Təəssüf ki, ölkəmizdə milli innovasiya sistemi hələ tam formalaşdırılmayıb. İnnovasiya məhsulları istehsal edən müəssisələrin sayı olduqca azdır və ümumilikdə Azərbaycanda innovasiya məhsullarının həcmi aşağı səviyyədədir. İnnovatik inkişafın stimullaşdırılması mexanizmləri və dövlət dəstəyi alətləri təkmilləşdirilməlidir. İnnovasiya fəaliyyəti haqqında qanunun da qəbul edilməsinə ehtiyac vardır.

Ölkəmizdə dünya təcrübəsinə uyğun şəkildə fəaliyyət göstərən innovasiya mərkəzlərinin yaradılması başlanğıc səviyyəsindədir və bu sahədə kifayət qədər həllini gözləyən məsələlər vardır. İşğaldan azad olunmuş ərazilərdə innovativ qida sənayesinin, xüsusilə orqanik

[4] Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. / – Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir.

[5] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə təsdiq edilmişdir. №3378.

[6] Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 16 yanvar tarixli Fərmanı ilə təsdiq edilmişdir.

kənd təsərrüfatının və yüksək texnologiyalar əsaslı aqrar-emal sənayesinin yaradılması potensialı yüksəkdir. Fikrimizcə, bu qeyd olunan istiqamətlər üzrə daha dərin, köklü elmi-tədqiqat işlərinin təşkilinə və aparılmasına zərurət yaranmışdır.

Bu amillər və göstərilənlər dissertasiya işinin mövzusunun aktuallığını ifadə edir.

Dissertasiya işinin mövzusunun işlənmə dərəcəsi haqqında bunları demək mümkündür ki, iqtisadiyyatın aktual məsələləri, müasir dövrdə iqtisadi dəyişikliklər və qlobal çağırışlar kontekstində qida sənayesinin inkişaf problemləri, bu sahənin innovativ inkişaf istiqamətləri üzrə ölkəmizin və xarici ölkələrin alimlərinin-tədqiqatçılarının əsaslı elmi əsərləri diqqət çəkir. Azərbaycanlı alimlərdən – akademik Z.Ə.Səmədzadə, E.A.Quliyev, B.X.Ataşov, İ.H.İbrahimov, A.F.Abbasov, V.H.Abbasov, Y.H.Həsənli, T.N.Əliyev, Q.Ə.Səfərov, Ş.T.Əliyev, Ə.Q.Əliyev, A.D.Hüseynova, İ.A.Aslanzadə, A.H.Tağıyev, F.F.Babayev və digərlərinin bu istiqamətlərdə elmi əsərləri vardır. Xarici ölkə alimlərindən R.M.Solou, P.E.Samuelson, J.A.Şumpeter, R.R.Nelson, M.E.Porter, K.M.Şvab, R.A.Fatxuddinov, Y.B.Qerber, Y.A.Qerman, N.D.Dmitriyev, A.N.Şatalova, Y.N.Şeremetyeva, T.N.Şmulova və başqaları iqtisadi inkişaf və artım, innovasiyaların formalaşması və tətbiqi, qida sənayesinin fəaliyyətinin səmərəli təşkil edilməsi, bu sahənin innovativ inkişafına nail olunması və innovativ fəaliyyətin məhsuldarlıq istiqamətli təsir mexanizmləri hesabına problemlərinin həll edilməsi məsələləri üzrə tədqiqatlar aparmış və nəzəriyyələr irəli sürmüşlər.

Qeyd olunanlarla yanaşı, əlavə edək ki, son onilliklərdə qlobal səviyyədə ərzaq təhlükəsizliyi problemləri kəskinləşmişdir və qida məhsullarının təhlükəsizliyi, insanların sağlamlığına zərər vurmayan mühüm qida məhsullarının yetişdirilməsi, əhalinin fasiləsiz və sabit şəkildə qida məhsulları ilə təmin edilməsi, qida rejimlərinin rasionallaşdırılması problemləri üzrə daha dərin elmi-tədqiqatlara və araşdırmalara ehtiyac qalmaqdadır.

Tədqiqatın obyekti və predmeti. Tədqiqatın obyekti Azərbaycanda qida sənayesi və onun subyektləri, qida sənayesinin innovativ inkişaf prosesləri və üslublarıdır. Tədqiqatın predmeti isə qlobal dəyişikliklər baxımından Azərbaycanda qida sənayesində

innovativ inkişaf problemlərinin, qanunauyğunluqlarının, meyillərin tədqiqi və bununla bağlı elmi cəhətdən əsaslandırılmış fəaliyyət istiqamətlərinin araşdırılmasıdır.

Tədqiqatın məqsəd və vəzifələri. Dissertasiya işinin başlıca məqsədi qlobal çağırışlar və təhdidlər şəraitində qida sənayesinin innovativ inkişafının nəzəri-metodoloji problemlərinin araşdırılması, bu sahədəki potensialın mövcud vəziyyətinin qiymətləndirilməsi, innovasiyayönlü fəaliyyətin səmərəli təşkil olunması istiqamətlərinin müəyyənləşdirilməsidir.

Göstərilən məqsədə nail olmaq üçün tədqiqatda qarşıya bu vəzifələr qoyulmuşdur:

- sənaye sahələrinin innovativ inkişaf proseslərinin nəzəri əsaslarının araşdırılması və qida sənayesinin innovativ inkişaf problemlərinin açıqlanması və metodoloji xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- qida sənayesinin səmərəli təşkili və innovativ inkişaf ilə bağlı beynəlxalq təcrübənin tədqiqi;
- innovasiya ilə bağlı fəaliyyət proseslərinin və ölkəmizin sənaye sahələrinin innovativ inkişafının müasir vəziyyətinin təhlil olunması və qiymətləndirilməsi;
- ölkəmizin qida sənayesində innovasiyaların tətbiqi proseslərinin intensivləşdirilməsi imkanlarının qiymətləndirilməsi;
- qida sənayesinin innovativ inkişaf problemlərinin dövlət tərəfindən tənzimlənməsi və bununla bağlı hüquqi bazanın reallığa uyğun araşdırılması;
- qida sənayesinin innovativ inkişafı üzrə maliyyə mexanizmlərinin təkmilləşdirilməsi imkanlarının araşdırılması;
- ölkəmizin qida sənayesinin innovativ inkişafının intensivləşdirilməsi üzrə Fəaliyyət Konsepsiyasının prioritet vəzifələrinin hazırlanması;
- yeni çağırışlar nəzərə alınmaqla, Azərbaycanın qida sənayesinin innovativ inkişaf proseslərinin sürətləndirilməsi yollarının müəyyənləşdirilməsi və bununla əlaqədar müvafiq tövsiyələrin və təkliflərin hazırlanması.

Tədqiqat metodları. Tədqiqat gedişində elmi abstraksiya, analiz, sintez, müqayisə, iqtisadi-statistik təhlil və həmçinin ümumiləşdirmə

metodlarından istifadə edilmişdir. Qeyd olunanlarla yanaşı, qida sənayesinin səmərəli təşkili və inkişaf problemləri, bu mühüm sənaye sahəsinin innovativ inkişaf modelləri və mexanizmləri üzrə müxtəlif konsepsiyalar (strategiyalar), nəzəri-metodoloji yanaşmalar əsas götürülmüşdür. Həmçinin, bu göstərilən problemlər və fəaliyyət istiqamətləri ilə bağlı ölkə və xarici alim-tədqiqatçıların elmi əsərləri diqqətdə saxlanılmışdır. Bunlarla bərabər, qida sənayesinin inkişaf etdirilməsi və innovativ inkişafın təmin olunması, onun səmərəli təşkil edilməsi və sürətləndirilməsi üzrə qanunvericilik aktları, ölkə Prezidentinin fərman və sərəncamları, eyni zamanda tədqiqat xarakterli analitik materiallardan istifadə edilmişdir:

Müdafiəyə çıxarılan əsas müddəalar bunlardır.

1. Qlobal meyllər və dəyişikliklər dövründə ərzaq təhlükəsizliyi problemləri nəzərə alınmaqla, qida sənayesinin yüksək texnologiyalar əsasında inkişaf etdirilməsi və onun innovativ inkişaf problemlərinin həll edilməsi istiqamətlərinə yeni yanaşmalar, nəzəri-metodoloji baxışlar tələb olunur.

2. Minilliyin əsas problemlərindən biri kimi ərzaq təhlükəsizliyinin təmin edilməsi və mühüm qida məhsullarının istehsalının sabitləşdirilməsi, daha əsaslandırılmış qida rejimlərinin formalaşdırılması, qida təhlükəsizliyi üzrə nəzarət mexanizminin təkmilləşdirilməsi ilə bağlı beynəlxalq təcrübənin araşdırılmasına və tətbiqinə ciddi zərurət vardır.

3. Azərbaycanda innovasiya fəaliyyətinin təşkili üzrə proseslərin, bu istiqamətdə inkişafı ləngidən maneələrin aradan qaldırılması tədbirlərinin və qida sənayesinin innovativ inkişafının müasir vəziyyətinin təhlil edilməsinə və qiymətləndirilməsinə ehtiyac yaranmışdır.

4. Qida sənayesinin innovativ inkişafının təmin olunması, bununla bağlı kompleks və sistemli tədbirlərin görülməsi, qida sənayesinin innovativ inkişafının mövcud durumunun tədqiqinin aparılması və müvafiq nəticələrin çıxarılması faydalı olardı.

5. Qida sənayesində mövcud problemlərin həllinə nail olmaq üçün innovativ inkişaf mexanizmlərinin tətbiq edilməsi, bu strateji sənaye sahəsində innovasiyaların tətbiqinin genişləndirilməsi potensialının araşdırılmasına və qiymətləndirilməsinə ciddi önəm verilməsi gərəkdir.

6. Qida sənayesinin innovativ inkişaf problemlərinin daha optimal

tənzimlənməsi, hüquqi qanunvericilik bazasının gücləndirilməsi, innovasiyaların tətbiqi proseslərinin sürətləndirilməsi məqsədilə qida sənayesinin innovativ inkişafı üzrə Fəaliyyət Konsepsiyasının hazırlanmasına ehtiyac qalmaqdadır.

7. Sosial-iqtisadi inkişafın prioritetləri çərçivəsində və postkonflikt ərazilərin potensialı baxımından ölkəmizin qida sənayesinin inkişafının intensivləşdirilməsi və onun innovativ inkişaf etdirilməsi istiqamətində daha səmərəli mexanizmlərin hazırlanması, tətbiqi və optimal fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi zərurəti yaranmışdır.

Tədqiqatın elmi yeniliyi aşağıdakılardır:

- Azərbaycanın qida sənayesi müəssisələrinin innovasiya potensialının əsas tərkib hissələri müəyyənləşdirilməklə, müasir dövrdə innovasiya strategiyasının formalaşdırılması mərhələlərinin alqoritm-sxemi verilmiş və qida sənayesində, onun müəssisələrində innovasiyaların təsnifatının blok-sxemi hazırlanmaqla bərabər, müasir nəzəri baxışlar formalaşdırılmışdır;
- qlobal çağırışlar və təhdidlər nöqteyi-nəzərdən qida sənayesinin inkişafının yüksək texnologiyalar əsasında təşkili və innovativ inkişafı üzrə metodoloji yanaşmalar müəyyənləşdirilmiş, qida sənayesi və onun müəssisələrinə təsir edən amillər sxematik olaraq verilmişdir;
- qida sənayesinin innovativ inkişafının formalaşdırılması, innovasiya infrastrukturunun genişləndirilməsi, innovasiya fəaliyyətinin səmərəliliyinin və rentabelliyinin artırılması mexanizmləri hazırlanmışdır;
- ölkəmiz üzrə qida sənayesinin innovativ inkişaf problemlərinin həll edilməsi və innovasiya əsaslı qida məhsullarının istehsalının genişləndirilməsi üzrə fəaliyyət istiqamətləri işlənilmişdir;
- qida sənayesinin innovativ inkişafında dövlət-özəl sektor subyektləri arasında əməkdaşlığın prioritet istiqamətləri müəyyənləşdirilmişdir;
- yüksək texnologiyalar və innovasiyaların işlənilməsi, mənimsənilməsi problemləri nəzərə alınmaqla, Azərbaycanın qida sənayesində innovativ texnologiyaların tətbiqi mərhələləri müəyyənləşdirilmiş və qida sənayesinin innovativ inkişafı üzrə maliyyə təminatı mexanizmləri hazırlanmışdır;

- müasir reallıqlar, obyektiv çətinliklər və mövcud problemlər əsas götürülməklə, Azərbaycanda qida sənayesinin innovativ inkişafı üzrə Fəaliyyət Konsepsiyasının mühüm tərkib elementləri hazırlanmışdır;
- yeni çağırışlar nəzərə alınmaqla Azərbaycanda qida sənayesinin fəaliyyətində və onun innovativ inkişafında olan problemlərin həlli yolları və fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş və təkliflər hazırlanmışdır.

Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti. Tədqiqatın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, əldə olunan nəticələr, yeni elmi yanaşmalar və konseptual baxışlar bu mövzu ətrafında gələcək araşdırmalar üçün etibarlı mənbə ola bilərlər. İşin praktiki əhəmiyyəti nöqteyi-nəzərindən qeyd edək ki, tədqiqatın gedişində əldə olunan nəticələr ümumiləşdirilmiş və müvafiq təkliflər hazırlanmışdır. Ümumilikdə bu təkliflərdən və verilmiş fəaliyyət mexanizmlərindən Azərbaycanda qida sənayesinin inkişaf etdirilməsi və onun innovativ inkişaf problemlərinin həllində istifadə olunması mümkündür. Məsələn, tədbirlər kompleksinin, məqsədli proqramların, konsepsiyaların və strategiyaların hazırlanmasında işdə verilən təklif və tövsiyələr faydalı ola bilər. Bunlarla yanaşı, dərsliklərin və dərs vəsaitlərinin, mühazirələrin yazılmasında dissertasiya işinin materiallarından istifadə olunması mümkündür.

Aprobasiyası və tətbiqi. Dissertasiya işinin mövzusu ilə bağlı iddiaçının 10 elmi əsəri, o cümlədən, 5 məqalə və 5 tezisi, onlardan 1 məqalə və 2 tezisi xaricdə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, müxtəlif səviyyəli konfrans materiallarında dərc olunmuşdur.

Dissertasiya işinin əsas elmi müddəaları "Müasir dövrdə sənaye sahələrinin və müəssisələrinin innovasiyalaşdırılması proseslərinə nəzəri yanaşmalar" (Bakı, 2023), "Qlobal kontekstdə qida sənayesində innovasiyaların genişləndirilməsi proseslərinin qiymətləndirilməsi" (Bakı, 2024), "Qida sənayesinin innovasiyalaşdırılması üzrə beynəlxalq təcrübə" (Bakı, 2024), "Azərbaycanda innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovasiyalaşdırılmasının mövcud vəziyyəti" (Bakı, 2025) və "Регулирование проблем инновационной деятельности в пищевой промышленности и укрепление ее правовой базы" (Москва, 2025) adlı məqalələrdə verilmişdir.

Bunlarla bərabər, dissertasiya işinin başlıca müddəaları "Postkonflikt ərazilər kontekstində Azərbaycanda qida sənayesinin innovasiyalaşdırılması istiqamətləri" (Bakı, 2024), "Усиление эффективности механизмов по инноватизаций пищевой промышленности Азербайджана в новых условиях" (Москва, 2025), "Yaşıl iqtisadiyyat quruculuğunda sənaye sahələrinin innovasiyalaşdırılmasının strateji əhəmiyyəti" (Sumqayıt, 2025), "Qlobal transformasiyalar şəraitində qida sənayesinin innovasiyalaşdırılması problemləri və inkişaf drayverləri" (Bakı, 2025) və "Modern problems and prospects of food industry innovation in the context of international experience" (Poland, 2025) adlı konfrans materiallarında da əks olunmuşdur.

Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı. Azərbaycan Kooperasiya Universiteti.

Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi. Giriş (16020 işarə), I fəsil (65901 işarə), II fəsil (73474 işarə), III fəsil (65935 işarə), nəticə (15896 işarə) və istifadə edilmiş ədəbiyyat siyahısı (24060 işarə) üzrə ümumi həcm 276920 işarədir. Dissertasiyanın işarə sayı cədvəllər, sxemlər, diaqramlar və istifadə olunmuş ədəbiyyat siyahısı istisna olmaqla 237226 işarədir.

DİSSERTASİYA İŞİNİN ƏSAS MƏZMUNU

Tədqiqat işinin **girişində** mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi məsələləri əks olunmuşdur.

Dissertasiyanın "**Qida sənayesinin innovativ inkişafının nəzəri metodoloji aspektləri"** adlı **birinci fəslində** sənaye sahələrində innovativ inkişaf proseslərinin nəzəri əsasları araşdırılmış, qlobal dəyişikliklər şəraitində qida sənayesinin innovativ inkişaf problemlərinin metodoloji xüsusiyyətlərinə baxılmış, dünya ölkələrində və şirkətlərində qida sənayesinin innovativ inkişafı üzrə mütərəqqi təcrübə araşdırılmışdır.

Qeyd edək ki, sənaye müəssisələrinin innovativ inkişaf proseslərinə nəzəri yanaşmalar baxımından bir qrup məsələlərə xüsusi önəm

vermişik. Bu baxımdan sənaye müəssisələrinin innovativ inkişafı onların səmərəli fəaliyyətinin təşkilinin əsas şərtidir. Hazırda iqtisadiyyat sahələrinin inkişafında, sahibkarlıq və biznes mühitinin cəlbediciliyinin artırılmasında yüksək texnologiyalar və innovasiyaların rolu sürətlə artmaqdadır. Akademik Z.Ə.Səmədzadə qeyd edir: *"Əhəmiyyətli cəhət ondadır ki, sahibkarlıq fəaliyyəti genişləndikcə onun strukturu da təkmilləşir, informasiya texnologiyaları, telekommunikasiya və s. intellektual mülkiyyət tələb edən sahələrə sərmayə qoymaq marağı artır".*[7] Biz də hesab edirik ki, iqtisadiyyatın bütün sahələrində, o cümlədən qida sənayesində yüksək texnologiyaların tətbiqi maksimum prioritetlik təşkil edir. Professor E.A.Quliyev bildirir: *"Qida təhlükəsizliyinin formalaşdırılmasında, onun güclü fəaliyyət mexanizmlərinin yaradılmasında sistemli və kompleks yanaşma əsas prinsiplərdən biri kimi çıxış etməlidir".*[8] Bu baxımdan, milli iqtisadiyyatın strukturunda önəmli yer tutan qida sənayesinin müxtəlif innovativ iqtisadi mexanizmlər hesabına inkişaf etdirilməsi imkanları xüsusilə qiymətləndirilməlidir. Professor, Əməkdar Elm Xadimi B.X.Ataşov müasir şəraitdə texniki yeniliklərin tətbiqi ilə bağlı araşdırmalarında qeyd edir ki, p*erspektivli innovativ texnologiyaların tətbiqi və yaşıl iqtisadiyyatın inkişafı layihələri üçün maddi dəstək və şərait yaradılması vasitəsilə iqtisadi artımın daha da sabitləşməsinə nail olmaq mümkündür.*[9] Əlavə etmək mümkündür ki, hazırki dövrdə yaşıl iqtisadiyyatın, o cümlədən yaşıl qida sənayesinin formalaşdırılmasında innovativ texnologiyaların rolu həlledici xarakter daşıyır. İnnovasiya problemlərini davamlı şəkildə araşdıran iqtisadçı alimlər A.H.Tağıyev və Q.Ə.Səfərov i*nnovasiyaya konkret yeni ideyanın yaradılmasından onun reallaşdırılmasına qədər məqsədyönlü, ardıcıl və bir-birilə əlaqəli proseslərin məcmusu.*[10] kimi yanaşmışlar Müəlliflərin haqlı olduğunu qeyd edərək, bir məqama da diqqət

[7] Səmədzadə, Z.Ə. Azərbaycan iqtisadiyyatı 100 ildə. IV cild. / Z.Ə. Səmədzadə – Bakı: Letterpress nəşriyyat evi, – 2021. – s.294.

[8] Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. / E.A.Quliyev – Monoqrafiya. – Bakı: Kooperasiya, – 2020. – s. 11.

[9] Ataşov, B.X. Qlobal kontekstdə Azərbaycanda yaşıl iqtisadiyyatın və yaşıl enerjinin inkişaf etdirilməsi problemləri. – // Bakı: Kooperasiya. – 2024. №3(74), – s. 7.

[10] Tağıyev, A.H. İnnovasiya layihələrinin menecmenti. / A.H.Tağıyev, Q.Ə.Səfərov – Bakı: Elm, – 2013. – s.13.

yetirmək lazım gəlir ki, innovasiyaya həssaslıq texnoloji yenilikləri təkcə yaratmaq deyil, həm də tətbiq etmək qabiliyyəti kimi baxmaq mümkündür. Tədqiqatçı A.D.Hüseynova hesab edir ki, *innovasiya texnoloji inkişaf, idarəetmə qərarlarının həyata keçirilməsi, elmin müxtəlif sahələrində qabacıl nailiyyətlərin istifadəsinə əsaslanan biznes proseslərinin təşkili sahəsində müəyyən yenilik kimi başa düşülür*.[11] Digər tərəfdən, innovasiyanın xüsusiyyətlərindən biri də onun istehsal proseslərində səmərəli istifadə etmək üçün məqsədəuyğunluğu və iqtisadi fayda almaq imkanının olmasıdır.

Bu fikirdəyik ki, innovativ ideyaların axtarışı üçün yaxşı işləyən sistem innovativ fəaliyyətin tərkib hissəsidir. İstehsalla bağlı innovasiya anlayışı ilk dəfə innovasiya nəzəriyyəsinin banisi J.Şumpeter tərəfindən istifadə edilmişdir, o, innovasiyaya mənfəət əldə etməklə yanaşı, səmərəliliyin artırılması vasitəsi kimi baxmışdır. Bundan əlavə, J.Şumpeter innovasiyanın 5 əsas kateqoriyasını təsnifləşdirmişdir: *1) Yeni növ malların tətbiqi; 2) Yeni istehsal üsullarının tətbiqi; 3) Yeni bazarların açılması; 4) Yeni xammal mənbələrinin kəşfi və 5) Sənayenin tərkibində dəyişkiliklər*.[12] Bu təsnifatda verilənlər müasir dövrümüz üçün də xeyli aktualdır, həm yeni növ məhsulların texnologiyalarının hazırlanması və tətbiqi, daha maliyyətutumlu bazarların mənimsənilməsi, xammal resurslarının etibarlı mənbələrinin yaradılması, həmçinin sənaye sahələri və müəssisələrinin texnoloji baxımdan inkişafı mühüm əhəmiyyət kəsb edir.

Qeyd edək ki, innovasiyayönlü müəssisənin dayanıqlı inkişafına təsir göstərən amillər arasında resurs qrupu kimi təsnif edilmiş və iqtisadi fəaliyyətin müasir inkişafı üçün ən mühüm resursu təmsil edən innovasiya amilinə xüsusi önəm verilməlidir. Ümumiyyətlə, analoji amillərin hər birinin təsiri araşdırılmalı, müəyyənləşdirilməli və nəzərə alınmalıdır.

Cədvəl 1-də Azərbaycanın qida sənayesinin inkişafının yüksək texnologiyalar əsasında təşkili və innovativ inkişafı üzrə metodoloji yanaşmalar verilmişdir.

---

[11] Hüseynova, A.D. Elm və innovasiya fəaliyyəti: ölçmə və qiymətləndirmə, // – Bakı: TUNA, 2020, – s. 44.

[12] Schumpeter, J.A. History of Economic Analysis Oxford University Press, – 1954. – p. 648.


Cədvəl 1.

Qlobal çağırışlar və təhdidlər baxımından qida sənayesinin inkişafının yüksək texnologiyalar əsasında təşkili və innovativ inkişafı üzrə metodoloji yanaşmalar

Metodoloji yanaşmalar	Metodoloji yanşamaların qısa mahiyyəti və məzmunu
Dövlət siyasətinin və hüquqi bazanın dünya təcrübəsinə uyğunlaşdırılması prinsipi	– Yeni çağırışlara cavab verən dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi; – Qida sənayesinin innovativ inkişafnı intensivləşdirə və stimullaşdıra biləcək hüquqi bazanın formalaşdırılması, qanunların qəbul edilməsi.
Təşkilati-iqtisadi idarəetmə mexanizminə optimal yanaşma	– Dövrün tələblərinə cavab verən idarəetmə strukturunun yaradılması; – Yaxın və uzaq perspektivlər, qida sənayesinin resursları nəzərə alınmaqla strateji və taktiki vəzifələrin müəyyənləşdirilməsi; – İnnovasiyalaşdırma strategiyasının təşkilati-hüquqi mexanizmlərinin təkmilləşdirilməsi, maliyyə-kredit mexanizminin hazırlanması, marketinq xidmətinin gücləndirilməsi və rəqəmsal strategiyanın tətbiqi.
İnnovasiyalı istehsal infrastrukturunun formalaşdırılmasına prinsipial yanaşma	– Yüksək məhsuldarlığı və keyfiyyət göstəricilərini təmin edən innovasiyalar əsaslı istehsal infrastrukturunun yaradılması; – Yüksək texnologiyaların transferinin təmin edilməsi.
İnnovasiya fəaliyyətinin maddi-texniki bazanın formalaşdırılmasına sistemli yanşma	– İnnovasiya fəaliyyətinin davamlı və dayanıqlı olması üçün maliyyə təminatı mexanizminin gücləndirilməsi, yeni texnoloji qurğuların istismara verilməsi və maddi-texniki bazanın strateji hədəflərə uyğunlaşdırılması; – Qida sənayesi müəssisələrində əsas fondların və istehsal avadanlıqlarının xüsusi çəkisinin artırılması; – Qida sənayesi müəssisələrində istehsal olunan məhsulların təhlükəsizliyinin təmin olunması; – İnnovasiyayönlü müəssisələrin texniki səviyyəsinin yüksəldilməsi konsepsiyasının reallaşdırılması.
İnnovasiyayönlü qida sənayesi subyektlərinin kooperasiya-təssərrüfat əlaqələrinin və inteqrasiyanın inkişafına kompleks yanaşma	– Qida məhsullarının istehsalı üçün xammal bazasının formalaşdırılması; – Bu məqsədlə kənd təsərrüfatının müxtəlif sahələrində mühüm ərzaq məhsullarının istehsalı, daşınması və emal müəssisələrinə çatdırılması həlqələri arasında əlaqələrin sinxronlaşdırılması və gücləndirilməsi.
Qida sənayesinin innovativ potensialının formalaşmasına və inkişafına prioritet yanaşma	– İnnovasiya məhsullarına sifariş sisteminin formalaşdırılması; – Resurslara qənaət edən və daha təhlükəsiz texnologiyalar və innovasiyalar əsaslı qida sənayesi müəssisələri şəbəkəsinin yaradılması; – Texnoloji innovativ proseslərin təkmilləşdirilməsi və s.

Mənbə: müəllif tərəfindən hazırlanmışdır.

Qida sənayesinin və onun müəssisələrinin inkişafına təsir edən amilləri qruplaşdıraraq sxem 1-də vermişik.



Sxem 1. Qida sənayesi və onun müəssisələrinə təsir edən amillər
Mənbə: müəllif tərəfindən hazırlanmışdır.

Qida sənayesinin innovativ inkişafı üzrə dünya ölkələrinin təcrübəsinin baxılması və bununla bağlı dəyərləndirmələrin aparılması mühüm qida məhsullarının özünütəminat səviyyəsində, tədarükünün edilməsində önəmli rol oynaya bilər. Qərbi Avropa ölkələrində innovasiya mühiti Amerika və Yaponiya ilə müqayisədə nisbətən zəif inkişaf etmişdir ki, bu da əsasən riskli əməliyyatlara meyilliliyin az olması ilə bağlıdır. ABŞ-da innovasiya fəaliyyətinin tənzimlənməsinin əsas alətləri bunlardır: innovativ layihələrin maliyyələşdirilməsi; dövlətin vergi və kredit sistemləri tərəfindən verilən güzəştlər; innovasiya fəaliyyətinin informasiya və elmi-metodiki təminatı formaları; əməkdaşlığın stimullaşdırılması; istehsal olunan mal, iş və xidmətlərin rəqabət qabiliyyətinin artırılması.[13] Bundan əlavə, inkişaf etmiş ölkələr qida sənayelərinin inkişafına


[13] Старцева, Ю.В. Регулирование инновационной деятельности. Опыт США / Ю.В. Старцева // Актуальные научные исследования в современном мире. – 2020. № 6-3(62), – с. 262.

innovasiyaların köməyilə nail ola bilmişlər. Qida sənayesinin səmərəliliyini artırmaq üçün innovasiyalar hazırda dünya iqtisadiyyatının ön cərgəsində gedənlər sırasında möhkəmlənən Çin iqtisadiyyatının davamlı inkişafının təmin edilməsində əsas imperativdir. Bundan əlavə, Çinin qida sənayesi ölkə iqtisadiyyatının ən inkişaf etmiş və mühüm sahələrindən biri hesab olunur. Bu, müxtəlif ərzaq məhsullarının, o cümlədən taxıl, ət, balıq, tərəvəz, meyvə, süd məhsulları və s. istehsalı və emalını nəzərdə tutur.

Hesab edirik ki, qida sənayesinin innovativ inkişaf hədəflərinə çatmaqdan ötrü bir qrup ölkələrin təcrübəsindən bəhrələnmək məqsəduyğundur. Məsələn, balıqçılığın inkişafında Yaponiya təcrübəsinə üstünlük verilməlidir. Orqanik kənd təsərrüfatı məhsullarının istehsalının təşkili və yüksək keyfiyyətli qida məhsulları istehsal etmək üçün güclü xammal bazasının yaradılmasında ABŞ və Böyük Britaniyanın təcrübəsi daha çox səmərə verə bilər. Mühüm ərzaq məhsulları üzrə özünü təminat səviyyəsinin yüksəldilməsində Çin təcrübəsi daha çox işə yarayır. Qida məhsullarının təhlükəsizliyi standartları və təşkili baxımından Almaniya və Fransanın təcrübəsində istifadə olunması faydalı ola bilər. Qida sənayesinin innovativ inkişafının təmin olunması üzrə beynəlxalq təcrübənin Azərbaycanda tətbiqinə kompleks şəkildə baxılmalıdır. Belə ki, analoji təcrübələrin hansının yerli şəraitə uyğun gəlməsi və məhsuldarlığın artımına imkan verməsi əsas şərtlərdən olmalıdır.

İşin **"Azərbaycanda innovasiya fəaliyyəti və qida sənayesinin innovativ inkişafının müasir vəziyyətinin təhlili və qiymətləndirilməsi"** adlı **ikinci fəslində ö**lkədə innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovativ inkişaf proseslərinin təhlili aparılmış, qida sənayesinin innovativ inkişaf problemləri tədqiq olunmuş və Azərbaycanın qida sənayesində innovasiyaların tətbiqinin genişləndirilməsi məsələlərinə baxılmışdır.


Diaqram 1-də 2015-2024-cü illər üçün Azərbaycanda sənaye məhsulunun ümumi həcmini vermişik.



Diaqram 1. 2015-2024-cü illər üçün Azərbaycanda sənaye məhsulunun ümumi həcmi, milyon manat

Mənbə: https://www.stat.gov.az/source/agriculture/. ARDSK -nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Azərbaycanda qida sənayesinin inkişaf səviyyəsini bu sahədə məhsul istehsalı həcmindən daha aydın görmək mümkündür (diaqram 2).



Diaqram 2. Azərbaycanda qida sənayesi məhsulunun dəyəri (2015-2024-cü illər)

Mənbə: https://www.stat.gov.az/source/industry/. ARDSK -nin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Göründüyü kimi, tədqiq olunan dövrlər üzrə qida məhsullarının istehsalının davamlı olaraq artığını və 2022-ci ildə özündən əvvəlki illərlə müqayisədə daha çox olduğunu göstərə bilərik. Belə ki, istehsal olunan qida sənayesi məhsulunun 2022-ci ildə dəyəri 4890,9 milyon manat olub ki, bu da 2015-ci ilə görə 2,1 dəfə, 2020-ci ilə görə 12,6%, 2021-ci ilə görə isə 8,8% çoxdur. 2022-ci ildə qida sənayesi məhsulunun ölkə üzrə ümumi sənaye məhsulunda xüsusi çəkisi 5,7 %, ÜDM-də xüsusi çəkisi isə 3,6% təşkil etmişdir. 2023-2024-cü illərdə də qida sənayesi məhsullarının istehsal həcmi artım nümayiş etdirmişdir.

Cədvəl 2-də ölkəmizdə qida sənayesinin bir qrup əsas göstəriciləri verilmişdir.

Cədvəl 2.

Azərbaycanda sənaye məhsulunun dəyəri, faktiki qiymətlərlə, milyon manat (2015-2024-cü illər üzrə)

Göstəricilər	2015	2020	2021	2022	2023	2024	2015-2024 +/-
Bütün sənaye,ondan	26369,4	37269,9	55229,1	86383,4	67296,0	64867,4	2,46 dəfə
Emal sənayesi	7880,4	11848,3	15887,0	18116,4	18431,2	19323,8	2,46 dəfə
Qida məhsullarının istehsalı	2307,6	3884,3	4495,6	4890,9	4547,6	4590,6	98,9 %
İçki istehsalı	197,7	427,6	490,9	563,0	703,1	811,4	4,1 dəfə
Tütün məmulatlarının istehsalı	27,2	436,0	677,9	768,9	949,3	996,5	36,6 dəfə

Mənbə: ARDSK-nın məlumatları əsasında hazırlanmış və hesablanmışdır. https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/source/senaye_2025.pdf. /).

Cədvəl 2-dən görmək mümkündür ki, 2015-2024-cü illərdə qida sənayesində məhsul istehsalının artımı 99%-ə yaxın olmuşdur. Halbuki ölkədə ümumi sənaye, həmçinin emal sənayesi üzrə artım müvafiq olaraq 2,46 dəfə yüksəlmişdir. Bu onu göstərir ki, qida sənayesinin dinamik artımını təmin edə biləcək tədbirlər görülməli, əsas etibarı ilə bu sahənin innovativ inkişaf proseslərinin sürətləndirilməsi təmin olunmalıdır.

Cədvəl 3-də ölkəmizdə əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növləri üzrə həcmini təhlil etmişik.

Cədvəl 3.

Azərbaycan Respublikasında əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növlərinə görə həcmi, min manat (2015-2024-cü illər üzrə)

İqtisadi fəaliyyət növləri	2015	2020	2021	2022	2023	2024	2015-2024: +/-
Sənaye - cəmi, ondan	929,7	11759,7	60977,2	72826,9	62400,8	67579,4	72,7 dəfə
Emal sənayesi, onlardan	929,7	9344,2	58133,8	68854,8	62400,8	67579,4	72,7
Qida məhsullarının istehsalı		-	3859,2	7307,3	2500,0	4000,0	9,9 dəfə
İçki istehsalı	758				1919,0	4901,0	6,47 dəfə

Mənbə: ARDSK-nın məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır. https://www.stat.gov.az/source/industry/

Cədvəl 3-dən görmək olar ki, 2015-2024-cü illər üzrə Azərbaycanda əhəmiyyətli dəyişikliklərə məruz qalmış və ya yeni tətbiq olunmuş innovasiya məhsulunun iqtisadi fəaliyyət növləri üzrə həcmi 73 dəfəyə yaxın artmışdır. Amma, hesab edirik ki, bu ölkəmizin sənaye potensialına, o cümlədən emal sənayesinin potensialına uyğun deyildir. Belə ki, 2024-cü ildə ölkə sənayesində ümumi innovasiya məhsulunun həcmi 68,0 milyon manata yaxın olmuşdur və bu rəqəm o qədər də yüksək deyildir. Qida məhsulları istehsalında isə cəmisi 4 milyon manatlıq əhəmiyyətli dəyişikliklərə məruz qalmış innovasiya məhsulu istehsal olunmuşdur.

Cədvəl 4-də ölkəmizdə 2015-2024-cü illər üzrə təkmilləşdirilmiş innovasiya məhsulunun iqtisadi fəaliyyət növlərində həcminin təhlili verilmişdir.

Bu cədvəldən aydın olur ki, Azərbaycanda göstərilən dövrdə təkmilləşdirilmiş innovasiya məhsulunun iqtisadi fəaliyyət növlərində həcmi 33 dəfəyə yaxın artmışdır.


Cədvəl 4.

Azərbaycan Respublikasında təkmilləşdirilmiş innovasiya məhsulunun iqtisadi fəaliyyət növlərində həcminin dinamikası, min manat (2015-2024-cü illər üzrə)

İqtisadi fəaliyyət növləri	2015	2020	2021	2022	2023	2024	2015-2024: +/-
Sənaye - cəmi, ondan	589.7	16828,4	8305,8	38662,6	19254,5	19419,2	32,9 dəfə
Emal sənayesi, onlardan	589.7	16828,4	8305,8	38662,6	19254,5	19419,2	32,9 dəfə
Qida məhsullarının istehsalı		-	-	17692,7	5000,0	1500,0	-
İçki istehsalı	...	-	-	-	-		-

Mənbə: ARDSK-nın məlumatlarına görə müəllif tərəfindən hazırlanmış və hesablanmışdır. https://www.stat.gov.az/source/industry/

Azərbaycanın qida sənayesi müəssisələrində texnoloji innovasiyalara çəkilən xərclərin həcmini diaqram 3-də vermişik.




Diaqram 3. Azərbaycanda qida məhsullarının istehsalında texnoloji innovasiyalara çəkilən xərclərin həcmi, min manat (2017-2024-cü illər)
Mənbə: ARDSK: https://www.stat.gov.az/source/industry.

Diaqramın təhlilindən aydın olur ki, qida məhsullarının istehsalına çəkilən texnoloji innovasiyaların həcmi qeyri bərabər artmışdır.

Məsələn, 2024-cü ildə 2020-ci ilə görə qida məhsullarının istehsalı məqsədilə texnoloji innovasiyalara çəkilən xərclərin həcmi 7835,7 min manat və ya 10,4 dəfə azaldığı halda, 2023-cü ilə görə 287,3 min manat və ya 52,8% artmışdır.

Diaqram 4-də isə Azərbaycanda qida sənayesinə yönəldilmiş investisiya qoyuluşlarının həcmini təhlil etmişik.



Diaqram 4. Azərbaycanda qida sənayesinə yönəlik investisiyaların həcmi, milyon manat (2017-2024-cü illər üzrə)

Mənbə: ARDSK: https://www.stat.gov.az/source/industry.

Diaqramdan göründüyü kimi, qida sənayesinə yönəlik investisiyaların həcmi də qeyri-bərabər artmışdır. Həmin sahəyə yönəlik investisiyaların həcmi 2024-cü ildə 118,4 milyon manat olub ki, bu da tədqiq etdiyimiz dövrlərdə ən aşağı göstəricidir. Bu sektora qoyulan investisiyaların ölkə sənayesinə qoyulan investisiyalarda xüsusi çəkisi çox az, yəni, 1,5% təşkil etmişdir ki, bu da həmin sahənin innovasiyalaşdırılmasında çətinliklər yaratmışdır ki, biz bunu texnoloji innovasiyalara çəkilən xərclərin və məhsul buraxılışının həcminin təhlilində müşahidə etdik. Fikrimizcə, investisiyalaşdırmanın zəifliyi sektorda innovativ təşəbbüslərin reallaşdırılmasını ləngidir.

Məlumdur ki, qida sənayesi müəssisələrində innovasiyaların tətbiqinin genişləndirilməsində onların maliyyə təminatı önəmli rol oynayır. “Azərsun Holdinq”in 2015-2024-cü illər üzrə maliyyə göstəricilərini təhlil etdikdə, bir neçə mühüm meyl ortaya çıxır. Satışdan gəlir baxımından holdinq bu dövrdə ümumilikdə artım

göstərib. Belə ki, 2015-ci ildə satışdan gəlir 309,5 milyon manat olduğu halda, 2024-cü ildə 1661,6 milyon manata çatıb. Lakin bu artım illər ərzində sabit olmayıb və 2017-2018-ci illərdə azalma müşahidə olunur. Satılmış məhsulun maya dəyəri də eyni istiqamətdə dəyişib və gəlirlə paralel şəkildə yüksələn meyl göstərir, lakin bəzən satışdan gəlirin daha yüksək sürətlə artmasına baxmayaraq xalis mənfəətin azalması müşahidə olunub. Cədvəl 5-də əsas maliyyə göstəricilərinin təhlilindən görünür ki, təhlil olunan dövr ərzində əsas maliyyə göstəriciləri xalis mənfəət baxımından daha dəyişkən olmuşdur.

Cədvəl 5.

"Azərsun Holdinq"in əsas maliyyə göstəriciləri, milyon manat (2015-2024-cü illər)

İllər	Satışdan gəlir	Satılmış məhsulun maya dəyəri	Xalis mənfəət
2015	309,5	212,6	96,9
2016	822,7	698,5	46,7
2017	792,7	694,5	27,1
2018	730,0	646,1	22,0
2019	1003,6	762,8	52,9
2020	952,1	664,9	72,87
2021	1522,4	1147,0	28,3
2022	1825,4	1360,3	15,2
2023	1810,9	1347,7	58,3
2024	1661,6	1213,9	43,97

Mənbə: Azərsun Holdinq. https://azersun.com/az/about/maliyye-hesabatlari - əsasında hazırlanmışdır.

Bu dəyişkənlik göstərir ki, Azərsunun gəlir artımı həmişə mənfəət artımı ilə üst-üstə düşmür və şirkətin əməliyyat səmərəliliyi maya dəyəri və digər xərclərlə birbaşa bağlıdır. Təhlillərdən bu qənaətə gəlirik ki, Azərsun satış baxımından güclü artım potensialına malik olsa da, xalis mənfəət baxımından stabillik əldə etməkdə çətinlik çəkib. Maya dəyərinin artımı və əməliyyat xərclərinin idarə olunması şirkətin mənfəət səviyyəsinə birbaşa təsir edir və bu, maliyyə göstəricilərində dəyişkənlik yaradan əsas amillərdəndir. 2023-cü ilin göstəriciləri bərpa potensialını göstərir, lakin 2024-cü ilin azalma

meyli gəlirin səmərəli idarə olunmasının hələ də çətin olduğunu göstərir. Bu və ya digər qeyri-bərabər artım meylləri holdinqin innovasiyalaşdırılmasına da çətinliklər törədir.

Qeyd edək ki, "Azərsun"un investisiya fəaliyyəti də fəal olmuşdur ki, bunu cədvəl 6-dan görə bilərik. "Azərsun Holdinq"in 2021–2024-cü illərdəki investisiya fəaliyyətini təhlil edərkən qeyri-maddi aktivlərin və torpaq, tikili və avadanlıqların alınması üzrə xərclərdəki dəyişikliklər diqqət çəkir.

Cədvəl 6.

"Azərsun Holdinq"in investisiya fəaliyyəti, min manat (2021-2024-cü illər)

İnvestisiyalaşdırma obyektləri	2021	2022	2023	2024
Qeyri-maddi aktivlərin alınması	371,2	1185,0	10366,2	1324,8
Torpaq, tikili və avadanlıqların alınması	49634,7	75128,3	79772,6	79505,9

Mənbə: Azərsun Holdinq. https://azersun.com/az/about/maliyye-hesabatlari - əsasında hazırlanmışdır.

Qeyri-maddi aktivlərə yatırımlar 2021-ci ildə 371,2 min manat təşkil etmiş, 2022-ci ildə 1185 min manata qədər artmışdır ki, bu da təxminən üç dəfəyə yaxın artım deməkdir. 2023-cü ildə bu xərclər kəskin şəkildə artaraq 10366,2 min manata yüksəlmişdir ki, bu artım digər illərlə müqayisədə çoxdur ki, bu da böyük ehtimalla yeni texnologiyalar, proqram təminatı və ya brendin inkişafına yönəlmiş əhəmiyyətli investisiyalarla bağlıdır. 2024-cü ildə isə xərclər 1324,8 min manata düşmüşdür, yəni 2023-cü ildəki ani artımdan sonra onlar nisbətən stabilləşmişdir. İnvestisiyaların bir hissəsi də kənd təsərrüfatı sahəsinə yönəldilir. Bu sahədə müasir suvarma texnologiyaları, toxumçuluq innovasiyaları və məhsulun qorunması texnologiyaları tətbiq edilir. Bu, məhsuldarlığı artırır, istehsal prosesində itkiləri minimuma endirir.

Bu, uzunmüddətli aktivlərə yatırımların planlı şəkildə aparıldığını və əsasən istehsal, logistika və ya anbar sahələrinin gücləndirilməsinə yönəldiyini göstərir. Bu göstəricilər şirkətin texnoloji modernləşməyə, maddi əsaslı infrastruktura əhəmiyyət verdiyini, investisiyaların strateji plan əsasında reallaşdırıldığını

ortaya qoyur. Ümumiyyətlə, “Azərsun Holdinq”in innovasiya strategiyası şirkətin davamlı inkişafını təmin edən əsas amillərdən biridir. Texnoloji yeniliklərin, rəqəmsal həllərin və ekoloji təşəbbüslərin sistemli şəkildə tətbiqi şirkətin bazar mövqeyini möhkəmləndirir və onun yerli və xarici bazarlarda rəqabət qabiliyyətini artırır.

Xüsusilə, Azərbaycanın qida sənayesində qida tullantılarından istifadə edilməklə innovativ metodlar sayəsində əlavə dəyərin yaradılması və daha çox mənfəət əldə edilməsi imkanları mövcuddur: 1) Bioloji və fermentasiya əsaslı metodlar. 2) Öncül ekstraksiya texnologiyaları baxımından bioaktiv birləşmələrin, o cümlədən antioksidantlar, polifenollar, piqmentlər kimi tullantıların bərpasından ötrü "yaşıl" alternativlər formalaşdırmaq mümkündür. 3) Süni İntellekt və maşın öyrənməsi inteqrasiyası texnologiyalarından ibarət modellər bioaktiv ekstraksiyanın optimallaşdırılmasında ənənəvi üsullardan müsbət cəhətləri ilə fərqlənir. 4) Təkrar emal texnologiyaları nöqteyi-nəzərindən qida tullantısı biokütləsini dəyər əlavə edilmiş məhsullara çevirmək texnologiyalarına tələbat daha çox artmışdır. 5) Funksional qida və nutrasevtik istehsal texnologiyaları hesabına qida sənayesində yan məhsulların bioaktiv birləşmələr, pəhriz lifi və zülalların məhsuldar mənbəyini yaratmaqla, mühüm qida məhsullarının istehsalı üçün əlavə imkanlar yaranır. 6) Dairəvi iqtisadiyyat çərçivəsi texnologiyası sayəsində qida tullantılarının idarə edilməsi strategiyalar, o cümlədən bioloji çevrilmə, termal çevrilmə, kimyəvi çevrilmə, mexaniki və fiziki emal – qida tullantılarından dəyərli resursların bərpası və istifadəsinə köməklik göstərilir.

Bir məsələyə xüsusi diqqət yetirmək istərdik. Belə ki, son illərdə Azərbaycanın müxtəlif iqtisadiyyat sahələrində yüksək texnologiyaların tətbiqinə diqqət artmışdır. Rəqəmsal şəraitdə və süni intellekt mexanizmlərinin tətbiqinin intensivləşməsi ilə əlaqədar olaraq analoji texnoloji tətbiqlərin əhatəsi daha da genişlənməkdədir. Bu proseslərdən əvvəl isə nanotexnologiyalardan istifadə edilməsi məsələləri aktual olub. Təəssüf ki, Azərbaycanın qida sənayesində nanotexnologiyanın tətbiqi ilə bağlı vəziyyət hazırda əsasən elmi-tədqiqat mərhələsindədir və bununla əlaqədar deyə bilərik ki, geniş

sənaye miqyasında tətbiq prosesləri xeyli məhdud xarakter daşıyır. Hesab edirik ki, qida sənayesində nanotexnologiyaların tətbiqinə dair xüsusi tədbirlər kompleksi hazırlanmalı və həyata keçirilməlidir: 1) Aktiv qida qablaşdırılması; 2) Nanomateriallar əsaslı mühafizə örtükləri, dərmanlar və tibb aparatları, eyni zamanda qida məhsullarının qablaşdırılması və s.

Dissertasiya işinin **"Yeni çağırışlar şəraitində Azərbaycanda qida sənayesinin innovativ inkişaf problemlərinin həlli istiqamətləri"** adlı **üçüncü fəsildə** ölkədə qida sənayesinin innovativ inkişafının təmin olunması üzrə dövlət dəstəyi, hüquqi və maliyyə mexanizmlərinin təkmilləşdirilməsinə baxılmış, Azərbaycanda qida sənayesinin innovativ inkişafı üzrə Fəaliyyət Konsepsiyasının hazırlanması istiqamətləri və müasir reallıqlar şəraitində Azərbaycanın qida sənayesinin innovativ inkişafının sürətləndirilməsi yolları tədqiq olunmuşdur.

Qeyd edək ki, qida sənayesində və onun müəssisələrində innovativ texnologiyaların daha fəal tətbiqində və transferində, elmi-texniki yeniliklərin nəzərə alınmasında hüquqi amillərin və dövlət dəstəyi mexanizmlərinin rolu müstəsna əhəmiyyət kəsb edir. Belə ki, qida sənayesinin innovativ inkişafının təmin olunması bir tərəfdən ölkəmizin ərzaq təhlükəsizliyini gücləndirir, digər tərəfdən isə qeyri-neftqaz sektorunun rəqabət qabiliyyətinin yüksəldilməsinə əlavə potensial formalaşdırır. Bu baxımdan, qida sahəsinin yüksək texnologiyalar əsasında modernləşdirilməsində, avtomatlaşdırılmasında və rəqəmsallaşdırılmasında bir qrup hüquqi amillərin və dövlət dəstəyi mexanizmlərinin rolu böyükdür: 1) qida sənayesində innovativ metodların, rəqəmsal və süni intellekt mexanizmlərinin, həmçinin keyfiyyət standartlarının tənzimlənməsi mühüm rola malikdir. 2)"Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanununda qida zəncirinin bütün mərhələlərində, o cümlədən istehsal, emal, qablaşdırma, daşınma proseslərində risk əsaslı nəzarət sisteminin yaradılmasını və qida məhsullarının hərəkətinin rəqəmsal izlənilməsini şərtləndirir. 3) "Dövlət-özəl tərəfdaşlığı haqqında" Qanunda isə qida sənayesi üçün vacib əhəmiyyət kəsb edən aqro-logistik mərkəzlərinin, anbar təsərrüfatlarının və innovativ emal zavodlarının yaradılması

prosesləri təşviq edilir. 4) "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2027–2032-ci illər üçün Dövlət Proqramı" çərçivəsində ailə təsərrüfatlarının və kiçik istehsalçıların innovativ qablaşdırma, soyuducu sistemlər və sterilizasiya avadanlıqları ilə təmin edilməsi, onların laboratoriya müayinələrinin subsidiyalaşdırılması mexanizmlərinin tətbiq edilməsi planlaşdırılmışdır.

Qeyd edək ki, dayanıqlı inkişafın uzunmüddətliliyinin təmin edilməsi, "bilik iqtisadiyyatı"nın formalaşdırılması, yüksək texnologiyalı istehsalların, yeni məhsulların yaradılmasının sürətləndirilməsi innovasiya fəaliyyətinin genişləndirilməsinə əsaslanır. Bunlarla bərabər, bildiririk ki, qida sənayesinin ekoloji dayanıqlığı da innovasiyalaşdırmanın ayrılmaz hissəsidir. Tullantıların təkrar emalı, bioproses texnologiyalarının tətbiqi, karbon emissiyalarının azaldılması və yaşıl enerjidən istifadə qlobal ekoloji standartlara inteqrasiyanı sürətləndirir. Azərbaycanın Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarında yaradılan "ağıllı kənd" və "yaşıl sənaye" konsepsiyaları bu istiqamətdə pilot model rolunu oynaya bilər.

Qida sənayesinin innovativ inkişafı istiqamətində dövlət dəstəyi, hüquqi tənzimləmə, maliyyə mexanizmləri və beynəlxalq institutların fəaliyyəti proseslərində funksional əlaqələrin səmərəli təşkili və prioritet istiqamətlərin müəyyənləşdirilməsi vacib şərtlərdəndir. Bu nöqteyi-nəzərdən, hüquqi tənzimləmə baxımından ciddi tədbirlərin görülməsinə və müvafiq ölkə qanunlarının qəbul edilməsinə ehtiyac vardır. Digər tərəfdən, dövlət texnoparklar, sənaye parkları, sənaye məhəlləri, aqroparklar vasitəsilə iqtisadi fəaliyyət subyektlərinə 10 illik güzəştlər verir və bu amilin etibarlı maliyyə mexanizmlərinin formalaşdırılmasında bağlılığı diqqət çəkir.

Azərbaycanda qida sənayesinin innovasiyalaşdırılması üzrə Fəaliyyət Konsepsiyanın uğurlu tətbiqi ölkənin qida sektorunda yüksək texnologiyalara əsaslanan, çevik, şəffaf və ixracyönümlü bir sənaye strukturunun formalaşmasına şərait yaradacaq və bu Konsepsiyanın bir qrup əsas tərkib elementlərini təklif edirik (sxem 2).



Sxem 2. Azərbaycanda qida sənayesinin innovasiyalaşdırılması üzrə Fəaliyyət Konsepsiyanın bir qrup əsas tərkib elementləri

Mənbə: müəllif tərəfindən hazırlanmışdır.

Hesab edirik ki, Fəaliyyət Konsepsiyasında verilən təkliflər və fəaliyyət istiqamətləri ölkəmizin qida sənayesinin innovasiyalaşdırılmasına ciddi töhfə verə bilər. Belə ki, Fəaliyyət Konsepsiyanın reallaşdırılması Azərbaycanın həmin sənaye sahəsinin

innovativ şəkildə yenilənməsinə, rəqabətqabiliyyətli məhsul istehsalının genişlənməsinə və ölkənin iqtisadi təhlükəsizliyinin gücləndirilməsinə əlavə imkanlar yaradar.

Tədqiqat prosesində Azərbaycanda qida sənayesinin fəaliyyətində və onun innovasiyalaşdırılması ilə bağlı bir qrup problemlərin olduğunu müəyyənləşdirmişik və onların həll edilməsi, bu problemlərin aradan qaldırılması ilə bağlı mühüm məsələləri, təsir edə biləcək tədbirləri ümumiləşdirməklə bərabər, bir sıra təkliflər də irəli sürürük:

– ölkənin qida sənayesinin modernləşdirilməsi və texniki cəhətdən yenidən təchiz edilməsi, qabaqcıl texnologiyaların və məhsulun keyfiyyətinin idarə edilməsi sistemlərinin tətbiqinin genişləndirilməsi müasir dövrün zərurətinə çevrilmişdir;

– qida sənayesinin istehsal güclərinin optimallaşdırılması və yüksək texnologiyaların ötürülməsinin daha fəal şəkildə həyata keçirilməsi ön plana çıxarılmalıdır;

– kənd təsərrüfatı xammalı mənbələrinin yüksək səviyyədə mərkəzləşdirilməsi nəzərdə tutulmuş geniş tədarük məntəqələri şəbəkəsinin yaradılması, kənd təsərrüfatı məhsulları istehsalçıları və qida istehsalı müəssisələri tərəfindən məhsulların birgə emalı və satışı üçün kooperativlərin təşkili məsələlərinə baxılması fayda verər;

– qida sənayesində innovasiya fəaliyyətinin əsas istiqamətlərindən biri kimi çoxkomponentli qida məhsullarının layihələndirilməsi və yaradılmasını vacib hesab edirik. Bu proseslərin səmərəliliyi innovasiya proseslərinin idarə edilməsindən xeyli dərəcədə asılıdır. Qida sənayesində innovasiya prosesinin idarə edilməsinin əhatə dairəsinə ilk növbədə bunların daxil edilməsi vacibdir: 1) xammalın dərindən emalı və 2) innovativ qida məhsullarının əldə edilməsini təmin edən tədqiqat və təcrübə işlərinin aparılması;

– qida sənayesi əhalinin sağlamlığında, ərzaq təhlükəsizliyində və sosial inkişafda önəmli rol oynadığından, bu sahənin məhsullarının keyfiyyəti, sağlamlıq və gigiyena göstəriciləri ciddi şəkildə nəzərə alınmalıdır.

Dissertasiyanın "Nəticə" bölməsində tədqiqatın mahiyyətindən irəli gələn elmi-təcrübi əhəmiyyətə malik aşağıdakı təklif və tövsiyələr verilmişdir.

1) Qida sənayesi və onun müəssisələrində innovasiya məhsullarının istehsalı ilə bağlı investisiya cəlbediciliyini təmin edilməsi və bununla da xaricdən investisiyaların cəlb olunması, texnologiyanın ötürülməsinin stimullaşdırılması vacibdir. Bundan əlavə, innovasiyayönlü müəssisələr sənaye kadrlarının ixtisas səviyyəsini yüksəltməli və innovasiya, tədqiqat fəaliyyəti və müəssisə işçilərinin qabiliyyət və intellektinin inkişafı və reallaşdırılması üçün lazımi şərait yaratmalıdırlar. Sənaye müəssisələrinin innovativ inkişafına kompleks yanaşmanın tətbiqi onların dinamik inkişafına və rəqabət qabiliyyətinin güclənməsinə imkan yaradar.

2) Qida istehsalçıları və istehlakçıların maraqlarını təmin etmək, ərzaq idxalını maksimum azaltmaq, ölkənin qida sənayesini inkişaf etdirmək, kənd təsərrüfatının və ərzaq istehsalı üçün əsas xammal mənbələrinin inkişafına əsaslı təkan vermək və qida sənayesinin innovativ inkişafı sayəsində ölkənin ərzaq təhlükəsizliyinə nail olmaq olar.

3) Qida sənayesində innovasiyaların tətbiqi yalnız yeni texnologiyalardan ibarət deyil, həmçinin strateji planlaşdırma, davamlı idarəetmə və kompleks ekosistem yanaşması tələb olunur. Azərbaycanın qida sənayesi bu istiqamətdə ardıcıl addımlar atarsa, təkcə daxili bazarı keyfiyyətli məhsullarla təmin etməyəcək, həmçinin ölkənin bu sahədə regional və qlobal rəqabətdə mövqeyini gücləndirəcək.

4) Qida sənayesinin fəaliyyət strategiyasına rəqabət qabiliyyətini və bazarda sabit mövqe tutmaq imkanı verən ən mühüm amillər arasında bunları qeyd etmək məqsədəuyğundur: 1) istehsalın texniki və texnoloji təchizat səviyyəsinin yüksəldilməsi; 2) istehsalın çevik və optimal planlaşdırılmasının təşkili; 3) marketinq tədqiqatlarının dəqiq təşkili və tədarükçülərlə qarşılıqlı faydalı əlaqələrin qurulması yolu ilə daha keyfiyyətli məhsul istehsalının təmin edilməsi və s.

5) Qida sənayesinin və onun müəssisələrinin, bütövlükdə ölkənin daha yüksək, keyfiyyətcə fərqli inkişaf səviyyəsinə keçidinə nail

olmaq məqsədilə innovativ inkişaf strategiyalarının idarəetmə sistemini təkmilləşdirmək və bu strategiyaların səmərəliliyini artırmaq zərurəti qalmaqdadır. Bununla bağlı məqsədlər və hədəflər innovasiyaların idarə edilməsinin bütün səviyyələrini əhatə edən "Qida sənayesinin və onun müəssisələrinin innovativ fəaliyyətinin səmərəli idarə edilməsi Konsepsiyası"nın hazırlanmasını şərtləndirir.

6) Təklif olunan Konsepsiya innovasiyaların idarə edilməsi sahəsində xarici təcrübə və yerli müəssisələrin innovasiyaların idarə edilməsinin mövcud vəziyyəti, habelə ölkəmizin innovativ inkişaf yoluna keçidinin xüsusiyyətləri nəzərə alınmaqla hazırlanmalıdır. Bu məqsədlə innovativ inkişaf fəaliyyətinin idarə edilməsi sistemli şəkildə reallaşdırılmalıdır.

7) Qida sənayesində və onun müəssisələrində innovativ inkişaf strategiyalarının idarə edilməsinin səmərəlilik səviyyəsi qənaətbəxş kimi səciyyələndirilirsə, innovativ inkişaf potensialını inkişaf etdirmək, onun üstün tərəflərini daha da gücləndirmək və zəif tərəfləri aradan qaldırmaq lazımdır.

8) Yaxın və uzaq perspektivlər nəzərə alınmaqla, ölkəmizdə strateji əhəmiyyət kəsb edən qida sənayesinin innovativ inkişaf problemlərinin sistemli şəkildə baxılması və həll edilməsi, innovasiya əsaslı qida məhsullarının istehsalının artırılması məqsədilə, "2026-2035-ci illərdə Azərbaycan Respublikasında qida sənayesinin innovativ inkişaf problemlərinin həlli üzrə Dövlət Proqramı"nın hazırlanması və həyata keçirilməsini təklif edirik. Bu, proqramın reallaşdırılması dövründə beynəlxalq təcrübədən irəli gələn innovativ inkişaf modellərinin praktiki tətbiqinə və ölkəmizin iqtisadi – innovativ inkişaf prioritetlərinə uyğun mexanizmlərin hazırlanaraq həyata keçirilməsinə daha münbit şərait yarada bilər.

Dissertasiya işinin əsas məzmunu aşağıdakı elmi əsərlərdə dərc edilmişdir:

1. Müasir dövrdə sənaye sahələrinin və müəssisələrinin innovasiyalaşdırılması proseslərinə nəzəri yanaşmalar. // – Bakı: Qərbi Kaspi xəbərləri, 2023, № 04. – s. 158-164.

2. Qlobal kontekstdə qida sənayesində innovasiyaların genişləndirilməsi proseslərinin qiymətləndirilməsi. // – Bakı: Tikintinin iqtisadiyyatı və menecment" jurnalı, 2024, № 02. – s. 219-225.

3. Postkonflikt ərazilər kontekstində Azərbaycanda qida sənayesinin innovasiyalaşdırılması istiqamətləri. // – Bakı: "Azərbaycanda ətraf mühitin sağlamlaşdırılmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda respublika elmi-praktiki konfransı, 2024, 15 may, – s. 233-239.

4. Qida sənayesinin innovasiyalaşdırılması üzrə beynəlxalq təcrübə. // – Bakı: "Geostrategiya" jurnalı, 2024, № 06 (84). – s. 198-202.

5. Усиление эффектиности механизмов по инноватизаций пищевой промышленности Азербайджана в новых условиях. // – Москва: XII Международной научно-практической конференции Мировая глобализация: Фундаментальные и прикладные аспекты", 30 января 2025, – стр. 48-58.

6. Azərbaycanda innovasiya fəaliyyətinin və sənaye sahələrinin innovasiyalaşdırılmasının mövcud vəziyyəti. // – Bakı: "Kooperasiya" elmi-praktiki jurnalı, 2025, № 03 (78). – s. 80-88.

7. Регулирование проблем инновационной деятельности в пищевой промышленности и укрепление ее правовой базы. // – Москва: Журнал "Monetary economics and management", 2025. № 07. – стр. 158-165.

8. Yaşıl iqtisadiyyat quruculuğunda sənaye sahələrinin innovasiyalaşdırılmasının strateji əhəmiyyəti. // – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Malatya Turqut Özal Universiteti və Oş Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Sumqayıt Dövlət Universitetində keçiriləcək "Türkdilli dövlətlərin iqtisadi resurslarından səmərəli istifadənin aktual problemləri" mövzusunda I Beynəlxalq elmi konfransı, 22-23 may 2025. – s. 311-314.

9. Qlobal transformasiyalar şəraitində qida sənayesinin innovasiyalaşdırılması problemləri və inkişaf drayverləri. Azərbaycan Kooperasiya Universitetinin 60 – illiyinə həsr olunmuş "Yeni reallıqlar şəraitində Azərbaycanın iqtisadi və sosial inkişafı: problemlər, çağırışlar, perspektivlər" mövzusunda beynəlxalq elmi-praktiki konfransın materialları, Bakı, 06 dekabr 2025. – s.571-575.

10. Modern problems and prospects of food industry innovation in the context of international experience. // – Poland: World Conference on Emerging Science, Innovation and Policy. –2025. Vol. 3, – pp. 82-92.



Dissertasiyanın müdafiəsi 11 noyabr 2026-cı il tarixdə, saat 16^{00}-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 9 oktyabr 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.10.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 45675 işarə

Tiraj: 100